# Qələbəmizin qazanılmasında gənclərin qəhrəmanlığı danılmazdır



*Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda , Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Gənclər siyasəti bütün dövrlərdə yetişən nəslin ölkənin ictimai-siyasi həyatındakı rolunun artmasına, aparıcı qüvvəyə çevrilməsinə və yeni nəsil gəncliyin formalaşmasına əlverişli şərait yaradıb. Ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə gənclərə diqqət və qayğı xüsusi yer tutub. Ümummilli liderin gənclərə böyük ümid bəsləməsi və qayğı göstərməsi Azərbaycan gəncliyində özünə inam yaratdı. Heydər Əliyev deyirdi: "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bügünüdür, həm də sabahıdır, ümididir". Gəncliyi gələcəyimizin qarantı hesab edən ulu öndər gənclərin problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm vermişdir. Həmçinin gənclər siyasətini Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində dövlət siyasətinin prioriteti kimi dəyərləndirmişdir.***

Dahi şəxsiyyət respublika rəhbərliyinə qayıdışının ilk çağlarında öz siyasətində gənclərə mühüm yer ayırdı və onlara himayədarlıq etdi. Heydər Əliyev 1994- cü ilin iyulunda imzaladığı sərəncamla Gənclər və İdman Nazirliyini təşkil etməklə ayrı- ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətinin əlaqələndirilməsinə əlverişli şərait yaratdı. Bundan sonra gəncliyin inkişafında yeni mərhələnin əsası qoyuldu.

Ulu öndərin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti ötən illərdə müvafiq dövlət proqramları və qərarlarının fonunda son 18 ildə mahiyyət və keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bu dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçən müstəqil Azərbaycan tarixdə olmadığı qədər güclü dövlətə çevrildi. Təbii ki, bu inkişafda gənclərimizin xidməti danılmazdır. Gənclər siyasətinə göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycan gəncləri hərtərəfli inkişafa nail olub, dünya miqyasında ölkəmizi layiqincə təmsil etməyi bacarırlar. Bu qayğı, həm də gənclərimizin milli – mənəvi dəyərlərə sadiqliyində və vətənpərvərlik ruhunda yetişməsində mühüm əhəmiyyət kəsb edib. 2007-ci ili ölkədə "Gənclər ili" elan etməklə Prezident İlham Əliyev gənclərin inkişafına böyük önəm verdiyini nümayiş etdirdi.

Həyata keçirilən düzgün müəyyənləşdirilmiş dövlət siyasətinin nəticəsidir ki, gənc nəsil respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir. Minlərlə gənc beynəlxalq miqyaslı tədbirlərdə ölkəmizi uğurla təmsil edir, idmançılarımızın qələbələri sayəsində Azərbaycan bayrağı xarici dövlətlərdə qaldırılır. Gənclərimiz mədəniyyətlərarası dialoqun aparılmasında, beynəlxalq əməkdaşlığın inkişafında da fəal rol oynayırlar. Bunun nəticəsində Azərbaycan dünyada daha yaxından tanınır, tariximiz, mədəniyyətimiz və bugünümüz, eləcə də, Azərbaycan reallıqları barəsində geniş məlumatlar beynəlxalq ictimaiyyətə çatdırılır. Xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclər və məzunlar, orada çalışan gənc mütəxəssislər Azərbaycanın dünya miqyasında daha geniş tanınmasında fəal iştirak edirlər. Gənclərimiz, sözün həqiqi mənasında, bu gün Azərbaycanın xarici ölkələrdə ən fəal təbliğatçılarıdırlar.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının sədri, İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisi Leyla Əliyevanın bu istiqamətdə həyata keçirdiyi tədbilrər gənclərimiz üçün örnəkdir. Onun fəaliyyətində tariximizin, mədəniyyətimizin təbliği prioritet istiqamətlərdəndir. Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində azərbaycanlıların soyqırımına məruz qalması, bir rayonun bir gecənin içərisində yerlə-yeksan edilməsi, erməni vandalizmi, dünya xalqlarına bəyan edildi. Artıq dünya ictimaiyyətinə də bəlli oldu ki, soyqırımına məruz qalan Azərbaycan xalqıdır.

Azərbaycanın həyata keçirdiyi gənclər siyasəti böyüməkdə olan nəslin inkişafı, bilik və bacarıqlarını realizə etmələri üçün şərait yaratmaqla yanaşı, onları vətənpərvər ruhda formalaşdırıb. Vətən müharibəsi zamanı bunun bir daha şahidi olduq. Müharibə başlananda minlərlə gənc Səfərbərlik və hərbi xidmətə çağırış üzrə rayon şöbələrinə müraciət etdi. Bu müraciətlər gənclərimizin vətənpərvərlik ruhunun hesabatı idi. Qismən səfərbərlik elan edildiyinə görə, müraciət edən bütün gənclərin xahişi yerinə yetirilmədi. Onların bu niyyəti ordunun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu daha da artırdı. Döyüş meydanlarında düşmənlə üz-üzə dayanan hərbçilərimiz Azərbaycan gəncliyinin bu vətənpərvərliyindən daha da ruhlandı, güc, qüvvət aldı. Bu müharibə gənclərimiz üçün əsl sınaq meydanı oldu. Vətən müharibəsi zamanı gənclərimiz vətənpərvərliyini, əzmini, ərazimizin bütövlüyünün bərpa olunması uğrunda canından keçməyə hazır olduğunu, qəhrəmanlığını bütün dünyaya nümayiş etdirdilər.

Bu gün Azərbaycan bayrağının Cəbrayılda, Hadrutda, Füzulidə, Zəngilanda, Şuşada, Ağdamda, Kəlbəcərdə və Laçında dalğalanması Ali Baş Komandanımız İlham Əliyevin yüksək və məğlubedilməz sərkərdəlik qabiliyyətinin, qəhrəman ordumuzun qüdrətinin, həmçinin gənclərimizin mərdliyinin, şücaətinin, xalqımızın monolit birliyinin və həmrəyliyinin parlaq nümunəsidir.

Vətən müharibəsinə könüllü yollanan gənclərin hamısı döyüşlərdə qəhrəmancasına iştirak etdilər. Onlar Azərbaycan gəncinin nəyə qadir olduğunu dünyaya göstərdilər. Düşmənə qan udduran, onları işğal etdikləri Azərbaycan ərazilərindən qovan gənclərimizin hər biri öz cəsurluğu, igidliyi ilə vətənpərvərlik salnaməsi yazdı. Bu müharibədə Vətən uğrunda canından keçərək şəhidlik zirvəsini fəth edənlərin böyük əksəriyyəti məhz gənclər idi.

Gənclərimiz öz şücaətləri, vətənpərvərlikləri ilə onları əvəz edəcək nəslə örnək oldular. Onlar şəhidlik zirvəsinə yüksəlməklə və Vətən yolunda sağlamlıqlarını qurban verməklə hər kəsin qəlbində əbədi heykəllərini ucaltdılar. Belə qəhrəmanlar heç vaxt unudulmur və həyat durduqca yaşayacaqlar. Ərazilərimizin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş əsgər və zabitlərimizin böyük əksəriyyəti gənclərdir. Onlar Prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunmuşlar. "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Zəfər", "Qarabağ", "Vətənə xidmətə görə", "Rəşadət", "Azərbaycan Bayrağı" ordenləri, habelə "Vətən uğrunda", "İgidliyə görə", "Döyüşdə fərqlənməyə görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" kimi medallar Vətən müharibəsi iştirakçılarına və ya ölümündən sonra onların yaxınlarına təqdim olunmuşdur.

Dövlət başçımız gənclərimizin hərbi vətənpərvərlik ruhunda yetişməsini yüksək qiymətləndirərək deyib: "Bizim gənclərimiz bu gün sərhədlərimizi qoruyurlar. Sərhədçilərimizin böyük əksəriyyəti gəncdir. Bizim gənclərimiz ictimai asayişi qoruyurlar. Bu gün Azərbaycan dünya miqyasında ən təhlükəsiz ölkələrdən biridir. Bizim gənclərimiz müxtəlif sahələrdə uğurla fəaliyyət göstərirlər". İkinci Qarabağ müharibəsində gənclərimizin göstərdiyi şücaət əsl hərbi vətənpərvərlik məktəbidir. Bu məktəbi öyrənmək, şəhidlərimizin xatirəsinə hörmətlə, qazilərimizə diqqət və qayğı ilə yanaşmaq hər birimizin vətəndaşlıq borcudur. Gənclərimiz döyüş meydanında vətənpərvərlik hislərini nümayiş etdirdilər. Dövlətimizin başçısı İlham Əliyevin "İrəli, Azərbaycan əsgəri!" çağırışına cavab verən gənclərimiz böyük ruh yüksəkliyi ilə silaha sarılaraq torpaqlarımızı işğaldan azad etdi, ərazi bütövlüyümüz təmin olundu və 30 il işğal altında qalmış ərazilərimizdə Azərbaycan bayrağının dalğalandırılmasına nail oldular.

Tarixi Qələbəmizdən sonra ölkəmiz inkişaf yolunda yenə də sürətlə və qətiyyətlə irəliləyir. Müharibədən yeni çıxmış ölkə üçün ağır olsa da, qarşıya qoyulan bütün vəzifələr icra olunur. Bu gün Azərbaycan dünyada çox sürətlə inkişaf edən ölkələrdən biri kimi tanınır. Son bir il ərzində Qarabağda geniş vüsət almış yenidənqurma, bərpa - quruculuq işləri də bunu təsdiqləyir. Bu işlərdə gənclərimizin də xidməti az deyil. Müharibdədə olduğu kimi, yenidənqurma və abadlıq işlərində də gənclərimiz dövlət başçımızın ətrafında sıx birləşib. Dövlət başçımız dəfələrlə bildirib ki, əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq və ilk növbədə, bu gün həll edə bilmədiyimiz məsələləri həll etməliyik, nöqsanları, problemləri aradan qaldırmalıyıq: "Əlbəttə ki, gənclər bu sahədə bizim ən birinci yardımçılar ola bilərlər və olmalıdırlar. Ona görə ictimai nəzarətin gücləndirilməsi çox önəmli məsələdir. Mən öz çıxışlarımda dəfələrlə demişəm ki, mütləq ictimai nəzarət olmalıdır. Çünki ictimai nəzarət olan yerdə işlər daha yaxşı gedir. Ona görə mən gəncləri bu məsələyə diqqət yetirməyə dəvət edirəm".

Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşada hərbçilərlə görüşü zamanı da Qələbənin tarixi əhəmiyyətini bir daha vurğuladı, onu qazananlara Vətən adından təşəkkürünü bildirdi: "Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi".

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***